**Azərbaycan Respublikası Vergilər Nazirliyinin**
**Tədris Mərkəzi**

**“Maliyyə-mühasibat hesabatlarının tərkibi və məzmunu” mövzusu üzrə**

# TƏLİM MATERİALI

**Dinləyicilər** orta və kiçik menecerlər (mütəxəssislər);
**Təhsilalma forması** əyani;
**Tədris müddəti** 2 saat;
**Müəllif** Tanrıverdiyev Qalib Əziz oğlu., İqtisadiyyat və menecment kafedrasının dosenti;

**Tədrisin məqsədi –** Maliyyə-mühasibat hesabatları barədə dinləyicilərə məlumat vermək, onların formasını nümayiş etdirmək, maliyyə-mühasibat hesabatlarının tərtib olunmasını praktiki misallar üzərində izah etməkdir. Dinləyicilər təlimin sonunda maliyyə (mühasibat) hesabatları barədə müəyyən bilgilərə malik olmalı, müəssisənin maliyyə-mühasibat hesabatlarını tərtib etməyi bacarmalıdır.

**Şamaxı – 2019**

**MÜNDƏRİCAT**

1. Maliyyə-mühasibat hesabatları....................................................................3
2. Maliyyə vəziyyəti haqqında hesabat...........................................................3
3. Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat....................5
4. Kapitalda dəyişikliklər haqqında hesabat....................................................5
5. Pul vəsaitlərininin hərəkəti haqqında hesabat.............................................6
6. Əhəmiyyətli uçot siyasətləri və izahedici qeydlər.............................................7

## I.Maliyyə -mühasibat hesabatları

**Maliyyə hesabatları** – İçtimaiyyətin məlumat ehtiyaclarına cavab verən, müəyyən olunmuş qaydada müəssisə tərəfindən tərtib, təqdim və dərc olunmuş "Maliyyə vəziyyəti haqqında hesabat", "Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat", "Kapitalda dəyişiklər haqqında hesabat", "Pul vəsaitinin hərəkəti haqqında hesabat" və "Əhəmiyyətli uçot siyasətləri və izahedici qeydlər"dən ibarət olan ümumi təyinatlı hesabatlardır.

Maliyyə hesabatının Beynəlxalq Standartlarında maliyyə hesabatı, onun tərtib və təqdim edilməsi "Maliyyə hesabatının təqdim edilməsi" adlı 1 №li standart vasitəsilə tənzimlənir. Bu standarta görə hesabatın hazırlanması və təqdim olunması zamanı aşağıda göstərilən qaydalara əməl edilməlidir.

Maliyyə hesabatlarının tam siyahısına aşağıdakılar daxildir:

Maliyyə vəziyyəti haqqında hesabat;

Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat

Pul vəsaitlərinin hərəkəti haqqında hesabat

Kapitalda dəyişikliklər haqqında hesabat

Əhəmiyyətli uçot siyasətləri və izahedici qeydlər.

Maliyyə hesabatının tərtib olunmasının əsas məqsədi aşağıdakılar barədə informasiya formalaşdırmaqdır:

Maliyyə vəziyyəti barədə

Maliyyə nəticələri barədə

Maliyyə vəziyyətinin dəyişməsi barədə (nağd pul vəsaitlərinin hərəkəti haqqında).

Maliyyə hesabatının 5 elementi vardır. Bunlar aşağıdakılardır:

Maliyyə vəziyyəti haqqında hesabat üzrə elementlər:

***Aktivlər***
***Öhdəliklər***
***Kapital***

Mənfəət və zərər haqqında hesabat üzrə elementlər:

***Gəlirlər***
***Xərclər***

Maliyyə hesabatında əks etdirilən informasiyanın keyfiyyət xarakteristikaları mühüm əhəmiyyət kəsb edir. Belə ki, hazırlanan hər bir hesabatın informasiyası ən azı aşağıdakı 4 keyfiyyət tələblərinə cavab verməlidir.

- ***Aydın olmalı;***
- ***Müqayisə oluna bilməli;***
- ***Münasib olmalı;***
- ***Etibarlı olmalıdır.***

Maliyyə hesabatında aşağıdakı standart məlumatlar qeyd olunmalıdır:

Şirkətin adı;

Hesabatın adı və tərtib edildiyi dövr.

Müəssisə illik maliyyə hesabatlarını və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını hesabat dövrünün sonunda, müvafiq olaraq, 4 ay və 6 ay müddəti ərzində təqdim etməlidir.

Kommersiya təşkilatlarının illik maliyyə hesabatları üçün aşağıdakı hesabat dövrləri müəyyən edilir:

- İl ərzində oktyabr ayının 1-dək yeni yaradılan mühasibat uçotunun subyektləri üçün birinci hesabat dövrü onların qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı tarixdən dekabr ayının 31-i də daxil olmaqla;
- Oktyabr ayının 1-dən sonra yeni yaradılmış mühasibat uçotunun subyektləri üçün isə birinci hesabat dövrü onların qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı tarixdən növbəti ilin dekabr ayının 31-i də daxil olmaqla;

- Digər mühasibat uçotunun subyektləri üçün hesabat dövrü yanvar ayının 1-dən dekabr ayının 31-i də daxil olmaqla.

Maliyyə hesabatlarının hazırlanması, təqdim edilməsi və dərc edilməsinə müəssisənin direktorlar şurası və (və ya) digər idarəetmə orqanı, belə bir qurum olmadığı halda müəssisənin rəhbəri cavabdehdir.

## II. Maliyyə vəziyyəti haqqında hesabat

Artıq bildiyimiz kimi, mühasibat bərabərliyi eyni bir vəsaitə iki aspektdən yanaşmanı göstərir :

- Bir tərəfdən o, müəssisənin sərəncamında olan resursları göstərir ki, bu da aktivlərdir.
- Digər tərəfdən həmin resursların yaranma mənbələrini göstərir ki, bu da passivlərdir.

Ona görə də bu mühasibat bərabərliyinə balans tarazlığı da deyilir.

Fransızca tərcümədə balans “bərabərlik”deməkdir. Latınca balans sözü iki sözdən “bi” və “lanx” sözlərindən ibarət olub, əsl mənada bərabərliyi göstərir və tərəzinin bir-birinə bərabər olan iki gözünü xarakterizə edir. Mühasibat uçotunda balans maliyyə hesabatı olub müəyyən dövrə aktivlərin, öhdəliklərin və xüsusi kapitalın məbləğini göstərir.

Maliyyə vəziyyəti haqqında hesabatın elementləri olan aktivlər, öhdəliklər və xüsusi kapital ümumi kateqoriyalar olub şirkətin biznes əməliyyatlarının təsnifləşdirmək üçün istifadə olunur. Dövr ərzində müəssisədə baş verən bütün əməliyyatların daha ətraflı və dəqiq əks etdirilməsi üçün aktivlərin və passivlərin tərkibinə daxil olan elementləri bilmək lazımdır. Aktivlər və öhdəliklər ilk növbədə qısamüddətli (cari) və uzunmüddətli olur. Müəssisə maliyyə vəziyyəti haqqında hesabatda uzunmüddətli və qısamüddətli aktivləri və öhdəlikləri ayrı-ayrılıqda əks etdirməlidir.






## III. Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat

Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat müəyyən dövrə müəssisənin maliyyə nəticəsi haqqında informasiyanı əks etdirir ki, bu da istifadəçi üçün ən mühüm hesabatlardan biridir. Bu hesabat vasitəsilə şirkətin mənfəət və ya zərərlə işləməsini müəyyən etmək olar.




## IV. Kapitalda dəyişikliklər haqqında hesabat

Müəssisə hesabat dövrü ərzində kapitalda dəyişikliklərin həcmi və səbəbləri haqqında informasiyanı əks etdirən Kapitalda dəyişikliklər haqqında hesabatı təqdim etməlidir.

Kapitalda dəyişikliklər haqqında hesabat dövr ərzində xüsusi kapitalın həcmində baş verən dəyişmələr haqqında informasiyanı əks etdirən hesabatdır. Hesabat dövründə xüsusi kapitalda baş verən dəyişikliyin əsas səbəbi müəssisə fəaliyyətinin nəticəsi olan xalis mənfəətdir. Bundan başqa, xüsusi kapitala qoyulan investisiya və sahibkarın çıxarışları, həmçinin kapitalla əlaqədar digər gəlir

və xərclərin baş verməsi nəticəsində də dəyişə bilər.

Kapitalda dəyişikliklər haqqında hesabatda informasiyanın formalaşması məntiqi aşağıdakı düsturda verilmişdir :

Xüsusi kapital – ilin əvvəlinə +Sahibkarın investisayası + Xalis mənfəət + Kapitalla əlaqədar digər gəlir və xərclər (digər ümumi gəlir) – Sahibkar çıxarışı = Sahibkar kapitalı – dövrün sonuna +Bölüşdürülməmiş mənfəət

Kapitalda dəyişikliklər haqqında hesabatda aşağıdakı komponentlər təqdim edilməlidir:

- ödənilmiş nizamnamə kapitalı;
- emissiya gəliri;
- geri alınmış kapital (səhmlər);
- kapital ehtiyatları;
- bölüşdürülməmiş mənfəət.

Hesabat dövrü ərzində müəssisənin kapitalında baş verən aşağıdakı dəyişikliklər haqqında məlumat Kapitalda dəyişikliklər haqqında hesabata daxil edilməlidir:

(a) hesabat dövründə xalis mənfəət və ya zərər;

(b) ayrı-ayrı maddələr üzrə və ümumi məbləğ şəklində kapitalda birbaşa uçota alınmış gəlirlər və xərclər;

(c) əsas cəmiyyətin və azlıq təşkil edən mülkiyyətçilərin payları ayrı-ayrı göstərilməklə, hesabat dövrü üzrə ümumi gəlirlər və xərclər ((a) və (b) bəndlərində əks olunmuş məbləğlərin cəmi);

(ç) müvafiq Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq, keçmiş illərin bölüşdürülməmiş mənfəətinin ilin əvvəlinə olan qalıqlarına düzəlişlər kimi qeydə alınan uçot siyasətində dəyişikliklərin və əhəmiyyətli səhvlər üzrə düzəlişlərin ümumi məbləği;

(d) aşağıdakı məlumatlar Kapitalda dəyişikliklər haqqında hesabatda bilavasitə və ya ona aid qeydlərdə açıqlanmalıdır:

- mülkiyyətçilər tərəfindən kapitala pay qoyuluşu və mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi üzrə əməliyyatlar;
- hesabat dövrünün əvvəlinə və sonuna bölüşdürülməmiş mənfəətin qalıqları və hesabat dövrü ərzində bu maddə üzrə dəyişikliklər;
- hesabat dövrünün əvvəlinə və sonuna ödənilmiş kapitalın hər bir tərkib hissəsinin (ayrılıqda səhmlərin sinifləri üzrə) və hər bir kapital ehtiyatının qalığının uyğunlaşdırılması və hesabat dövrü ərzində bu maddələrdəki dəyişikliklər.

## V. Pul vəsaitlərinin hərəkəti haqqında haqqında hesabat

Məlumdur ki, müasir biznesin inkişafının mühüm alətlərindən biri pul vəsaitləridir. Pul vəsaitləri ən likvid aktiv olub şirkətin fəaliyyətində mühüm rola malikdir. Belə ki, pul vəsaitləri istehsal və satış fəaliyyətinin vaxtında təşkilinin əsas təkanverici vasitəsidir. Istənilən müəssisə nağd pulla daha ucuz və daha tez müddətdə işlərini təşkil edə bilər.

Qeyd olunan səbəblərdən istər müəssisə daxilində, istərsə də müəssidənkənar qərar qəbul edən şəxslər (maliyyə hesabatının istifadəçiləri) üçün pul vəsaitləri haqqında informasiya mühüm əhəmiyyət kəsb edir.

Pul vəsaitlərinin hərəkəti haqqında hesabat (PVHHH)– hesabat dövründə müəssisənin əməliyyat, investisiya və maliyyə fəaliyyəti üzrə pul vəsaitlərində baş verən dəyişikliklər haqqında (onlarınn hərəkəti barədə) məlumatları özündə əks etdirən hesabat formasıdır.

Pul vəsaitləri haqqında ümüumi məlumat əslində Balans hesabatında öz əksinin tapır. Sual olunur, onda pul haqqında yeni hesabatın hazırlanmasına nə ehtiyac vardır?

Bu hesabat heç də bank əməliyyatlarının təhlili, yəni bank hesabına vəsaitlərin daxil olması və ya bank hesablarından ödənişlərin icra olunması haqqında hesabat deyildir. Bu hesabat, illər üzrə mühasibat uçotu balansında nağd vəsaitlər və onların ekvivalentlərinin axınının təhlili və onların bank hesablarındakı əməliyyatlar ilə əlaqələndirilməsi deməkdir.

PVHHH-nin tərtib olunmasında əsas məqsəd pul vəsaitlərində baş verən dəyişmələrin (artma və azalmaların) səbəbini ortaya çıxarmaq və lazımi məlumatı istifadəçiyə çatdırmaqdır. Yəni əsas məqsəd- daxilolmaların mənbələrini və nağd vəsait axınının istiqamətlərini izah etməkdən ibarətdir.

Pulla bağlı istifadəçiləri ən çox maraqlandıran sullar aşağıdakılardır:

Əldə olunan pul vəsaitləri hansı mənbələrdən daxil olub? satış (əsas istehsal) fəaliyyətindən, yaxud borc götürülüb, yaxud şəxsi kapitaldan, yaxud dövlət subsidyası kimi və sair. mənbələrdən.

Sərf olunan pullar haraya xərclənib ? əsas vəsait alınıb, yaxud məhsul istehsalı üçün material alınıb və yaxud borc ödənilib və s.

Yuxarıda qeyd olunan suallara cavab tapılarsa pulun axınını qiymətləndirmək və qərar qəbul etmək üçün çox əhəmiyyətli informasiya əldə etmək mümkündür.

PVHHH-də təkcə nağd pullar deyil, eyni zamanda pulu əvəz edən, yəni pulun ekvivalentləri (pula asan konvertasiya etmək mümkün olan qısamüddətli, yüksək likvidli maliyyə investisiyaları və dəyərinin dəyişilməsi riski az olan aktivlər) də daxildir.

Sözügedən hesabat müəssisənin likvidliyini əks etdirdiyinə görə istifadəçilər üçün mühüm informasiya mənbəyidir. Hesabat dövründə nağd pulların hansı mənbədən formalaşdığını məhz bu hesabat vasitəsilə görmək mümkündür. Bundan əlavə PVHHH vasitəsilə pulların daha çox hara sərf olunmasını müəyyən etməklə müəssisənin maliyyə siyasətini də qiymətləndirmək olar.

## VI. Əhəmiyyətli uçot siyasətləri və izahedici qeydlər.

İzahedici qeydlər maliyyə hesabatının ayrılmaz hissəsi olub hesabat dövründə mütləq tərtib olunmalıdır. İzahedici qeydlər olmasa rəqəmlərdən ibarət maliyyə hesabatı istifadəçi üçün müəyyən qədər anlaşılmaz qala bilər. Hesabatı tərtib edən şəxs izahedici qeyd vasitəsilə maliyyə hesabatının tərkibinə daxil olan hesablara açıqlamalar verməklə istifadəçinin qərarqəbuletmə işini asanlaşdıra bilər.

İzahedici qeydlərin tərkibində aşağıdakılar haqqında izahatların olması məqsədəuyğun hesab olunur:

1) Müəssisə və onun fəaliyyəti haqqında qısa məlumat;
2) Maliyyə hesabatının hazırlanmasının əsasları (uçot siyasəti) və əsas prinsipləri;
3) Maliyyə vəziyyəti haqqında hesabat üzrə:

- uzunmüddətli aktivlər və onların amortizasiyasının hesablanması metodları;
- debitor borclar və şübhəli borclar;
- investisiyalar;
- mal-material ehtiyatları;
- pul vəsaitləri və onların ekvivalentləri;
- kreditor borcları və digər borc öhdəlikləri və s.

4) Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat üzrə :

- gəlir kateqoriyalarının təhlili;
- xərc kateqoriyalarının təhlili və s.

5) Kapitalda dəyişikliklər haqqında hesabat üzrə:

- nizamnamə kapitalı;
- bölüşdürülməmiş mənfəət;
- dividendlər haqqında və s.

6) Hesabat dövründən sonra baş vermiş hadisələr haqqında:

- başqa müəssisələrlə bağlanmış müqavilə və razılaşmalar;
- şərti aktivlər və qiymətləndirilmiş öhdəliklər və s.

İzahlı qeydlər haqqında daha ətraflı məlumat əldə etmək üçün bank müəssisələrinin internet vasitəsilə ictimaiyyətə açıqladığı auditor rəylərinə baxa bilərsiniz.

**Nəzarət sualları:**

1. Maliyyə hesabatlarının siyahısına nələr aiddir?

**Müstəqil öyrənmə üçün tapşırıqlar:**

1. Maliyyə vəziyyəti haqqında hesabatın hazırlanması qaydası.
2. Maliyyə vəziyyəti haqqında hesabatın mənfəət vergisinin bəyannaməsinin 1 saylı əlavəsi ilə müqayisəsi.

**İstifadə olunmuş ədəbiyyat siyahısı**


1. Kərimov A.R. Mühasibat uçotu, vergilər. Bakı, 2015
2. Quliyev V., Fətullayev R., Kərimov A. Beynəlxalq uçot və hesabata giriş. Bakı, 2015
3. Mühasibat uçotunun əsasları.(beynəlxalq). Dərs vəsaiti. Birinci nəşr- GRBS. Bakı, 2010
4. Maliyyə hesabatının təqdimatı üzrə Kommersiya Təşkilatları üçün 1№li Milli Mühasibat uçotu Standartı.
5. Kapitalda dəyişikliklər haqqında hesabat üzrə üzrə Kommersiya Təşkilatları üçün 2№li Milli Mühasibat uçotu Standartı.
6. Pul vəsaitlərinin hərəkəti haqqında hesabat üzrə üzrə Kommersiya Təşkilatları üçün 5№li Milli Mühasibat uçotu Standartı.
7. Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına və Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına əsasən mühasibat uçotunun aparılması Qaydaları. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının Q-09 nömrəli 30 yanvar 2017-ci il tarixli qərarı
8. www.taxes.gov.az
9. www.maliyye.gov.az